***ALİ MƏCLİSİN İCLASI***

*2 fevral 2026-cı il. Saat 11.*

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini **Bəxtiyar Məmmədov** sədrlik edir.*

**Sədrlik edən.** Hörmətli deputatlar!

Hörmətli media nümayəndələri, hamınızı salamlayıram!

Hörmətli həmkarlar, yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasını açıq elan edirəm.

*(Azərbaycan Respublikasının Dövlət Himni səslənir.)*

**Sədrlik edən.** Bu gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının birinci iclası keçirilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin iclasında 42 deputat iştirak edir.

| **Qeydiyyat** | (saat 11.06 dəq.) |
|---|---|
| İştirak edir | 42 |
| Yetərsay | 31 |

İclas öz işinə başlamağa səlahiyyətlidir.

Bildiyiniz kimi, bu gün həmçinin ölkəmizdə Azərbaycan Gəncləri Günüdür.

Gənclərə həmişə böyük qayğı ilə yanaşan Ümummilli Lider Heydər Əliyevin imzaladığı müvafiq sərəncamla hər il fevral ayının 2-si ölkəmizdə Azərbaycan Gəncləri Günü kimi qeyd edilir.

Bu gün dövlətimizin gənclər siyasəti möhtərəm cənab Prezident, müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə daxil olmuş, gənclərimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək Azərbaycanın daha da güclənməsinə, inkişaf etməsinə töhfə verən aparıcı qüvvəyə çevrilmişdir.

Ulu Öndərin gənclərə etimadının ən böyük təsdiqi 44 günlük Vətən müharibəsində Azərbaycan gəncliyinin müzəffər Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə üzərinə düşən tarixi missiyanı yerinə yetirməsi oldu.

Fürsətdən istifadə edib Azərbaycan gənclərini təbrik edir, gələcək fəaliyyətlərində uğurlar arzulayıram!

*(Alqışlar.)*

Deputatlardan Azərbaycan Gəncləri Günü ilə əlaqədar çıxış etmək istəyən varmı?

Sevinc xanım, buyurun!

**S.Həsənova.** Hörmətli Bəxtiyar müəllim!

Dəyərli həmkarlar!

Ümummili Lider Heydər Əliyevin əsasını qoyduğu Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən dövrün çağırışlarına uyğun inkişaf etdirilən dövlət gənclər siyasətinin nəticəsidir ki, ötən dövrdə gənclərlə bağlı qanunvericilik bazası formalaşdırılmış, gənclərin cəmiyyətə inteqrasiyası üçün institusional mexanizmlər yaradılmışdır.

Azərbaycan gəncliyi öz vətənpərvərliyini təkcə sözlə deyil, əməli fəaliyyəti ilə də sübut edib. Vətən müharibəsi dövründə və sonrakı quruculuq mərhələsində gənclərimizin göstərdiyi fədakarlıq dövlətə və xalqa sədaqətin bariz nümunəsidir. Bu gün həmin gənclər Böyük Qayıdış siyasətinin həyata keçirilməsində, azad edilmiş ərazilərin bərpasında fəal iştirak edərək ölkəmizin gələcəyinə töhfə verirlər. Dövlətimiz tərəfindən yaradılan imkanlar gənclərin potensialının üzə çıxmasına və onların cəmiyyətin aparıcı qüvvəsinə çevrilməsinə real zəmin yaradır.

Xüsusilə vurğulamaq istərdim ki, bu siyasət Naxçıvan Muxtar Respublikasında da ardıcıl və məqsədyönlü şəkildə həyata keçirilir. Ölkə başçısı tərəfindən təsdiq olunan “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı”nda da prioritet sahələrdən biri gənclərlə işin gücləndirilməsidir. Proqramda gənclərin intellektual, sosial və peşəkar inkişafının dəstəklənməsi, onların əmək bazarına inteqrasiyasının genişləndirilməsi, innovativ düşüncəyə malik, vətənpərvər və rəqabətqabiliyyətli gənc nəslin formalaşdırılması əsas məqsədlər sırasında yer alır.

Hörmətli iclas iştirakçıları,

Əminliklə deyə bilərik ki, bu gün yetişən Azərbaycan gəncliyi sabahın məsuliyyətini daşımağa tam hazırdır. Onların bilik və bacarığı, vətənpərvər mövqeyi və fəallığı müasir Azərbaycanın ən etibarlı strateji resursudur.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Sevinc xanım!

Əlavə çıxış etmək istəyən varmı?

Mövlan müəllim, buyurun!

**M.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli həmkarlar və iclas iştirakçıları!

Müstəqil Azərbaycanın inkişaf modelində gənclər siyasəti prioritet istiqamətlərdəndir. Dövlət siyasətinin əsas hədəflərindən biri gənclərin potensialının tam reallaşdırılması üçün imkanların genişləndirilməsidir. Bu məqsədlə həyata keçirilən dövlət proqramları gənclərin dünyanın nüfuzlu ali təhsil müəssisələrində təhsil almasına, müasir bilik və bacarıqlar qazanmasına, beynəlxalq təcrübədən yararlanmasına şərait yaratmış, nəticədə rəqabətədavamlı kadr potensialının formalaşmasına mühüm töhfə vermişdir. Bunun nəticəsi olaraq gənc nəslin elm, texnologiya, mədəniyyət, idman və digər sahələrdə ölkənin nüfuzunun yüksəlməsində iştirakı daha da genişlənmişdir.

Hörmətli iclas iştirakçıları!

Gənclər siyasətinin və formalaşmış potensialın ən mühüm nəticələrindən biri də Vətən müharibəsində qazanılmış tarixi qələbə və suverenliyimizin tam təmin olunmasıdır. Bu tarixi nailiyyət Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, Azərbaycan Ordusunun peşəkarlığı və fədakarlığı ilə mümkün olmuş, ordu sıralarında xidmət edən gənc hərbçilərin şücaəti isə ölkəmizin ərazi bütövlüyünün bərpasında və dövlət suverenliyinin tam təmin olunmasında xüsusi yer tutmuşdur.

Bildiyiniz kimi, ölkə başçısının diqqəti sayəsində Naxçıvan Muxtar Respublikasında da gənclər siyasəti dövlətin ümumi strategiyasına uyğun olaraq həyata keçirilir. Əsas məqsəd gənclərin sosial-iqtisadi və ictimai həyatda iştirak imkanlarının genişləndirilməsi, intellektual və peşə potensialının inkişaf etdirilməsi, sağlam həyat tərzinin təşviqi, milli-mənəvi dəyərlərə bağlı, müasir çağırışlara cavab verən insan kapitalının formalaşdırılmasıdır.

Ölkəmizdə həyata keçirilən gənclər siyasətinin bundan sonra da davamlı inkişafa önəmli töhfə verəcəyinə inanır, Azərbaycan Gəncləri Günü münasibətilə bütün Azərbaycan gənclərini təbrik edirəm.

Diqqətinizə görə sağ olun!

**Sədrlik edən.** Çox sağ olun, Mövlan müəllim!

Əlavə çıxışı olan varmı?

Yoxdur.

Hörmətli deputatlar, bugünkü iclasın gündəliyində 3 məsələ nəzərdə tutulsa da, əlavə olaraq 2 məsələ tərəfimdən gündəliyə daxil edilmiş və deputatlara təqdim olunmuşdur. Xahiş edirəm, gündəliyə münasibət bildirəsiniz.

| **Səsvermənin nəticələri** | (saat 11.12 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Çox sağ olun!

Gündəlik qəbul olundu.

Gündəlikdə duran birinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planının təsdiq edilməsi barədədir.

Bildiyiniz kimi, Ali Məclisin fəaliyyəti qanunvericilik işləri planı əsasında qurulur. Ali Məclisin Daxili Nizamnaməsinin 8-ci maddəsinə əsasən növbəti sessiyanın ilk iclasında qanunvericilik işləri planı təsdiq olunmalı və Ali Məclisin iclasları bu plana uyğun keçirilməlidir.

Qanunvericilik işləri planı deputatlara paylanılmışdır.

Məsələ ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının qanunvericilik işləri planı haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.14 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Gündəlikdə duran ikinci məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılmasıdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 45.1-ci maddəsinə müvafiq olaraq Ali Məclisin yaz sessiyasının birinci iclasında Hesablayıcı komissiya yaradılmalıdır.

Ali Məclisin Daxili Nizamnaməsinin 45.2-ci maddəsinə əsasən Ali Məclisin Hesablayıcı komissiyası Ali Məclisin deputatları sırasından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Müzakirə olunan məsələ ilə əlaqədar qərar layihəsi hazırlanmışdır.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 45.1-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Dünyamalıyeva Aysel Məmməd qızı,

2. Həşimov Əli Həsənqulu oğlu,

3. Qənbərov Qafar Tahar oğlu,

4. Məmmədov Bəhruz Qibləli oğlu,

5. Məmmədova Xumar Şəmsi qızı.

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

| **Səsvermənin nəticələri** | (saat 11.15 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Etiraz etmirsinizsə, 15 dəqiqəlik fasilə edək. Bu müddət ərzində Hesablayıcı komissiyanın üzvləri ayrılmış otağa keçib komissiyanın sədrini və katibini seçsinlər, sonra gündəlikdə duran növbəti məsələlərin müzakirəsini davam etdirək.

Çox sağ olun! Başqa təklifi olan varmı?

Yoxdur.

15 dəqiqə fasilə elan olunur.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** Hörmətli deputatlar, iclasımız davam edir.

Xahiş olunur, Hesablayıcı komissiyanın sədri və katibi barədə məlumat verilsin.

**B.Məmmədov.** Hörmətli Bəxtiyar müəllim!

Hörmətli sessiya iştirakçıları!

Yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının 2 fevral 2026-cı il tarixdə keçirilən birinci iclasında yaradılmış Hesablayıcı komissiyanın iclası keçirilmişdir.

İclasda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Hesablayıcı komissiyasının 4 üzvü iştirak edib. Ali Məclisin Daxili Nizamnaməsinin 45.2-ci maddəsinə uyğun olaraq, iclasda Hesablayıcı komissiyanın sədri və katibinin seçilməsi məsələsinə baxılmışdır.

Müzakirələr nəticəsində Məmmədov Bəhruz Qibləli oğlu Hesablayıcı komissiyanın sədri, Məmmədova Xumar Şəmsi qızı komissiyanın katibi seçilmişdir.

**Sədrlik edən.** Sağ olun, Bəhruz müəllim!

Gündəlikdə duran üçüncü məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqındadır.

Ali Məclisin Daxili Nizamnaməsinin 46.1-ci maddəsinə əsasən Ali Məclisin yaz sessiyasının birinci iclasında İntizam komissiyası yaradılır.

İntizam komissiyası Ali Məclisin deputatları sırasından 1 il müddətinə 5 üzvdən ibarət tərkibdə seçilir.

Bununla əlaqədar qərar layihəsi hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46.1-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyası aşağıdakı tərkibdə yaradılsın:

1. Əliyev Əjdər Zahid oğlu,

2. Əliyeva Nuray Yadigar qızı,

3. Məmmədov Məmməd Kərəm oğlu,

4. Məmmədzadə Vüsal Əziz oğlu,

5. Rüstəmova Gülşad Qəzənfər qızı.

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam komissiyasının yaradılması haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.34 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

Səsvermədə iştirak edən 42 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf olan yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Gündəlikdə duran dördüncü məsələ Naxçıvan Muxtar Respublikası Ali Məclisinin komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsidir.

Ali Məclisin Daxili Nizamnaməsinin 40.1-ci maddəsinə əsasən Ali Məclisin 2024-cü il 30 sentyabr tarixli 5-VII QR nömrəli Qərarı ilə Ali Məclisin komitələrinin tərkibi seçilmişdir.

Komitələrin öz funksiyalarının həyata keçirilməsi istiqamətində təkmilləşdirmə aparılması məqsədilə komitələrin tərkibinin yenidən formalaşdırılması zərurəti yaranmışdır.

Daxili Nizamnamənin 41.3-cü maddəsinə əsasən Ali Məclisin komitəsinin sədri, onun müavini və üzvləri Ali Məclisin iclasında azı 23 deputatın səs çoxluğu ilə seçilirlər və komitənin tərkibinin seçilməsi Ali Məclisin qərarı ilə rəsmiləşdirilir.

Bununla əlaqədar qərar layihəsi hazırlanmışdır.

Komitələrin tərkibi ilə bağlı qərar layihəsini oxumaq üçün söz Ali Məclis Aparatının Protokol sektorunun müdiri Elşən Yolçuyevə verilir.

Buyurun, Elşən müəllim!

**E.Yolçuyev,** *Ali Məclis Aparatının Protokol sektorunun müdiri.*

Hörmətli Bəxtiyar müəllim!

Hörmətli Arzu müəllim!

Hörmətli deputatlar və iclas iştirakçıları!

İcazənizlə, qərar layihəsini diqqətinizə təqdim edim.

"Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 22-ci maddəsini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 41-ci maddəsinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

1. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin aşağıdakı deputatları müvafiq komitələrin sədrləri, sədr müavinləri və üzvləri seçilsinlər:

| I. Hüquq siyasəti komitəsi | | |
|---|---|---|
| 1. | Əliyev Əjdər Zahid oğlu | -sədr |
| 2. | Qasımov Əziz Kamal oğlu | -müavin |
| 3. | Abdullayev Qəzənfər İsmayıl oğlu | -üzv |
| 4. | Bayramova Ülkər İmamqulu qızı | -üzv |
| 5. | Məmmədov Bəhruz Qibləli oğlu | -üzv |
| 6. | Məmmədov Mövlan Ələddin oğlu | -üzv |
| 7. | Orucov Asəf Yunis oğlu | -üzv |
| 8. | Şıxəliyev Emin Arif oğlu | -üzv |
| 9. | Şükürov Kamil Qəzənfər oğlu | -üzv |
| 10. | Zeynalov Təbriz Eyvaz oğlu | -üzv |
| II. İqtisadi siyasət komitəsi | | |
| 1. | Bayramov Mübariz Rəcəb oğlu | -sədr |
| 2. | Novruzov Rafiq Novruz oğlu | -müavin |
| 3. | Məmmədov Məmməd Kərəm oğlu | -üzv |
| 4. | Məmmədov Nazim Məmməd oğlu | -üzv |
| 5. | Məmmədov Ramiz Gülməmməd oğlu | -üzv |

| | | |
|---|---|---|
| 6. | Məmmədov Üzeyir Səyyad oğlu | -üzv |
| 7. | Məmmədzadə Vüsal Əziz oğlu | -üzv |
| 8. | Nəcəfsoy Pərvin Vidadi qızı | -üzv |
| 9. | Novruzov Azad Sevindik oğlu | -üzv |
| 10. | Rzayev Teymur Yaqub oğlu | -üzv |
| | III. Sosial siyasət komitəsi | |
| 1. | Quliyeva Zeynəb Kərim qızı | -sədr |
| 2. | İsmayılov Mahir İslam oğlu | -müavin |
| 3. | Allahverdiyeva Həbibə Rəşad qızı | -üzv |
| 4. | Babayeva Aynur Arif qızı | -üzv |
| 5. | Dünyamalıyeva Aysel Məmməd qızı | -üzv |
| 6. | Hacıyeva Sevil Məhəmmədəli qızı | -üzv |
| 7. | Həsənova Sevinc Nəsrəddin qızı | -üzv |
| 8. | Həşimov Əli Həsənqulu oğlu | -üzv |
| 9. | Qənbərov Qafar Tahar oğlu | -üzv |
| 10. | Nəbiyev Ramil Paşa oğlu | -üzv |
| 11. | Orucova Xəzəngül Yunis qızı | -üzv |
| | IV. Humanitar siyasət komitəsi | |
| 1. | Canməmmədov Canməmməd Ramiz oğlu | -sədr |
| 2. | Əhmədova Şəhla Hüseyn qızı | -müavin |
| 3. | Babayeva Təhminə Adil qızı | -üzv |
| 4. | Cəfərov Rauf Mehralı oğlu | -üzv |
| 5. | Əhmədova Gülxarə Mənaf qızı | -üzv |
| 6. | Əliyeva Nuray Yadigar qızı | -üzv |
| 7. | Xudiyev Rza Əli oğlu | -üzv |
| 8. | Məmmədova Xumar Şəmsi qızı | -üzv |
| 9. | Rüstəmova Gülşad Qəzənfər qızı | -üzv |
| 10. | Rzayev Elmar İlqar oğlu | -üzv |
| 11. | Tarverdiyeva Gülxarə Budaq qızı | -üzv |

2. “Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələri sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 30 sentyabr tarixli 5-VII QR nömrəli Qərarı ləğv edilsin.

Diqqətinizə görə təşəkkür edirəm!

**Sədrlik edən.** Sağ olun, Elşən müəllim!

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.39 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi komitələrinin sədrlərinin, sədr müavinlərinin və üzvlərinin seçilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunması ilə bağlı səsvermədə iştirak edən 42 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Gündəlikdə duran beşinci məsələ “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi haqqındadır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarının 1-ci hissəsi ilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının aylıq vəzifə maaşları müəyyən edilmişdir.

Lakin “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2024-cü il 25 oktyabr tarixli 2-VII QN nömrəli Qanunu ilə artıq deputatların aylıq vəzifə maaşları və vəzifə maaşına əlavələr qanuna daxil edildiyindən müvafiq qərarda dəyişiklik zərurəti yaranmışdır.

Bununla əlaqədar qərar layihəsi hazırlanmışdır.

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarı.

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq, “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında” Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” 2024-cü il 25 oktyabr tarixli 2-VII QN nömrəli Qanununa uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının Ali Məclisi qərara alır:

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarının 1-ci hissəsi ləğv edilsin.

Qərar layihəsi ilə əlaqədar deputatlardan çıxış etmək istəyən və ya əlavə təklifi olan varmı?

Yoxdur.

Deputatlardan kim “Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunmasına tərəfdardırsa, xahiş edirəm səs versin.

Hesablayıcı komissiyadan xahiş olunur, səsləri hesablayıb məlumat versin.

| **Səsvermənin nəticələri** | (saat 11.42 dəq.) |
|---|---|
| Lehinə | 42 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 42 |

Nəticə: Qəbul edildi

**Sədrlik edən.** Buyurun, Bəhruz müəllim!

**B.Məmmədov,** *Ali Məclisin Hesablayıcı komissiyasının sədri.*

Hörmətli Bəxtiyar müəllim!

“Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatlarının əməkhaqlarının müəyyən edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2023-cü il 16 may tarixli 24-VI QR nömrəli Qərarında dəyişiklik edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qərarının qəbul olunması ilə bağlı səsvermədə iştirak edən 42 deputat qərar layihəsinin lehinə səs vermiş, əleyhinə və bitərəf yoxdur.

**Sədrlik edən.** Çox sağ olun!

Beləliklə, qərar qəbul edildi.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2026-cı il yaz sessiyasının birinci iclası başa çatdı.

Sağ olun!